**Hər zaman mənəvi miraslarını qoruyan, İslamın humanizm, bərabərlik və qardaşlıq prinsiplərinə sədaqətini nümayiş etdirən Azərbaycan xalqı Qurban bayramını əsrlər boyu, hətta tarixin ən mürəkkəb dövrlərində belə əziz günlərdən biri kimi qeyd etmişdir. Qurban bayramı özündə təcəssüm etdirdiyi dərin məzmunu ilə insanlara Allah yolunda bir olmağı, qurbanı dini mənsubiyyətindən asılı olmayaraq ehtiyacı olanlarla paylaşmağı, imkansıza daim əl tutmağı, xeyirxahlığı, paklığı aşılayır.**

# Qurban bayramı insanlara birlik, həmrəylik, şəfqət və xeyirxahlıq duyğuları aşılayır

Ümummilli Lider Heydər Əliyev hər il ölkəmizdə qeyd edilən dini bayramlar münasibətilə xalqı təbrik etmiş, müxtəlif illərdə Qurban bayramını, bu gün bir qismi öz doğma yurd-yuvalarında bayramı sevinclə qeyd edən keçmiş məcburi köçkün soydaşlarımızla birgə keçirmişdir. Ulu öndər ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra respublikamızda yaşayan bütün xalqların mədəniyyətinə, adət-ənənəsinə, dini baxışlarına tolerant münasibətin vacibliyini vurğulamışdır. Konstitusiyanın qəbulundan sonra ölkədə dini-mənəvi münasibətləri tənzimləyən milli qanunvericiliyin təkmilləşdirilməsi də bu baxımdan mühüm əhəmiyyət kəsb etmişdir. Ulu öndər 2003-cü ildə Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrikində demişdir: "Qoy bütün milli və dini bayramlarımız kimi mübarək Qurban bayramı da xalqımızın yüksək ideallar ətrafında daha sıx birləşməsini təmin etsin, azad, müstəqil və demokratik Azərbaycan dövlətinin gələcək inkişafı naminə bütün azərbaycanlılar arasında ümummilli həmrəyliyi möhkəmləndirsin!".

Xalqımız milli mədəniyyətini, zəngin ənənə və dəyərlərini hər zaman yaşadıb. Əsrlərin sərt sınaqlarından üzüağ çıxan xalqımız tarixini ən keşməkeşli, çətin anlarında belə insanlığın yüksəlişinə, mənəviyyatın təntənəsinə xidmət edən dini dəyərlərdən dönməyib, onları daim uca tutub. Bu müqəddəs etiqada, yüksək daxili inam və ruhi saflığa tapınan Azərbaycan xalqının uzun əsrlər boyu islami dəyərlərə sadiqliyinin bariz təcəssümüdür.

Sovet imperiyasının tərkibində yaşadığımız 70 il ərzində də xalqımız tarixi keçmişindən, dini və milli-mənəvi dəyərlərindən uzaqlaşmadı. Bütün dövrlərdə xalqımız insani kamilliyə, mənəvi paklığa qovuşmağa, xeyirxah işlər görərək savab qazanmağa can atdı, İslam dininin mahiyyətini dərk edərək onun müqəddəs çağırışlarına, mərasim və ayinlərinə əməl etdi.

Dini bayramımız olan Ramazan da sərhədləri aşaraq dünya müsəlmanlarının ortaq sevincli



məqamlarına çevrilib. Hər kəs sevincini bölüşür, bir-birlərinin ziyarətinə gedir və təbrik edirlər. Sözsüz ki, bunlar bizim ortaq dəyərlərimizdir.

İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla keçirilir. Milli Məclisin 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən, Qurban bayramı ölkəmizdə də dövlət səviyyəsində qeyd edilir. Qurban bayramı xeyirxahlıq və mərhəmət duyğularının təcəssümü olmaqla yanaşı, insanlarda bərabərlik və dözümlülük ovqatını da gücləndirir. Dünya müsəlmanlarının birlik, həmrəylik və qardaşlıq rəmzi olan bu müqəddəs bayramı Azərbaycanın hüdudlarından kənarda yaşayan bütün soydaşlarımız da sevinclə qeyd edirlər. Həmin günlər ölkəmizin hər yerində qurbanlar kəsilir, dövlətimizin firavanlığı və tərəqqisi üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Qurban bayramı cəmiyyətimizdə milli-mənəvi həmrəyliyi daha da gücləndirir, insanlar arasında şəfqət və mərhəmət duyğularının təntənəsini nümayiş etdirir.

Prezident cənab İlham Əliyev cəmiyyətin mühüm təbəqəsi olan dindarlarla mütəmadi görüşləri, onların dini-mənəvi ehtiyaclarına həssaslıqla yanaşması, dini bayram və mərasimlərdə şəxsən iştirak etməsi xalq arasında böyük razılıq və minnətdarlıqla qarşılanır, cəmiyyətdə etnik-dini dözümlülüyün təbliğinə və təşviqinə mühüm stimul verir. Dövlətin bu sahəyə diqqət və qayğısı Azərbaycandakı bütün mövcud milli-etnik qrupları, dini-mənəvi təşkilatları əhatə edir. Bu gün Azərbaycanda müxtəlif dini nümayəndələr ənənəvi olaraq qarşılıqlı etimad və əmin-amanlıq şəraitində fəaliyyət göstərir, İslam və qeyri-İslam dini icmalar öz etiqadlarını azad və sərbəst şəkildə icra edirlər.

Vətən müharibəsində də bütöv Azərbaycan xalqı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən naminə canından belə keçməyə hazır olduğunu göstərdi. Bu, xalqımızın böyüklüyünün və öz ali dəyərlərinə bağlılığının bariz nümunəsi idi. Məhz birliyimiz, həmrəyliyimiz düşmənlərimizi məğlubiyyətə uğratdı, böyük qələbəmizi təmin etdi. Artıq işğaldan azad edilmiş torpaqlarda da azan səsi ucalır, məscidlər bərpa olunur, beşinci ildir ki, müqəddəs Qurban bayramı qeyd edilir.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin Qurban bayramı münasibətilə xalqa təbrikində qeyd edildiyi kimi, bu əziz bayramı dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması, qəhrəman Azərbaycan əsgərinin Xankəndidə, Əsgəranda, Xocalıda dövlətimizin üçrəngli bayrağını ucaltması, Şuşa, Ağdam, Zəngilan məscidlərinin minarələrindən azanların səslənməsi ilə qarşılayırıq.

Müqəddəs Qurban bayramı müsəlman dünyasında əsl təntənəyə çevrilir, insanlara birlik, həmrəylik, şəfqət aşılayır. Dinimizin təlqin etdiyi ədalət prinsipləri də bu bayramda özünü göstərir. Bu bayram insanların mənən saflaşması, daha sıx birləşməsi üçün bir vasitədir. Bu birlik ovqatı cəmiyyətimiz və dövlətimiz üçün olduqca mühüm amildir.

**M.MİRZƏ,**
**"Respublika".**

Respublika .- 2025.- 6 iyun (№ 117).- S.11.